Azərbaycan Respublikası Vəkillər Kollegiyasının
Rəyasət heyətinin sədri cənab Anar Bağırova

Surəti: "Mirzəyev və Partnyorları" Vəkil Bürosuna

Abbasova Afət Nurəddin qızı tərəfindən
Ünvan: Gəncə şəhəri,Nizmai rayonu, İ.Qayıbov küçəsi,3-cü döngə, ev 3A
Telefon: 055 779 28 47

# MİNNƏTDARLIQ MƏKTUBU

Qeyd etmək istərdim ki, ölkəmizdə uğurla icra olunan hüquqi islahatlar Vəkillər Kollegiyasında yüksək peşəkar keyfiyyətlərə, dərin hüquqi biliklərə və qətiyyətli mövqeyə malik vəkillərin formalaşmasına şərait yaratmışdır. Bu müsbət tendensiyaya görə Sizə səmimi təşəkkürümü bildirirəm.

Təəssüf ki, oğlum - Abbasov Emil Vahid oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsini törətməkdə təqsirli bilinmişdir. Təxminən 1 il yarım əvvəl Tbilisi-Bakı aviareysi ilə Gürcüstandan Azərbaycan Respublikasına gələrkən özümlə ölkə ərazisinə zərgərlik məmulatları gətirdiyi üçün saxlanılaraq barəsində cinayət işi başlanmış və istintaqın aparılması üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsi İstintaq idarəsinin icraatına verilmişdir. Emil hava limanında zərgərlik məmulatları gətirdiyi üçün saxlanılmış və barəsində cinayət işi başlanmışdır. Lakin o saxlanılmadan öncə gömrük əməkdaşına yaxınlaşaraq dəyərləndirmə yerinin harada olduğunu soruşmuş, gömrük əməkdaşı isə cavabında dəyərləndirmə yerinin hava limanının inzibati binasından kənarda yerləşdiyini demiş və oğlumu çaşdıraraq yanlış kanala daxil olmağına səbəb olmuşdurlar.

Məhkəmə prosesi dövründə oğlumun müdafiəçisi və vəkili Şaiq Mirzəyev tərəfindən verilən əsaslı və lazımi vəsatətlər nəticəsində işin obyektiv, ədalətli araşdırılması təmin edilmiş və Emilin hərəkətlərində Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsinin tərkibinin olmadığı sübuta yetirilmişdir.

Bu məktubu dərin məmnunluq hissi ilə Sizə ünvanlayaraq bildirmək istəyirəm ki, "Mirzəyev və Partnyorları" Vəkil Bürosunun vəkili cənab Şaiq Mirzəyev oğlum Emilin hüquqlarının müdafiəsini yüksək peşəkarlıqla həyata keçirmişdir. Şaiq Mirzəyevin hüquqi bilikləri və təcrübəsi, hər mərhələdə verdiyi dəqiq məsləhətlər, eləcə də bizə göstərdiyi mənəvi dəstək bizim üçün son dərəcə önəmli olmuşdur. Şaiq Mirzəyevin səyləri nəticəsində cinayət işi ədalətli və uğurlu şəkildə həll edilmişdir. Onun kimi peşəkar vəkillərin fəaliyyəti cəmiyyətdə hüquq və ədalət prinsiplərinin daha da möhkəmlənməsinə töhfə verir. Hüquqi yardıma ehtiyacı olan şəxslərə də əminliklə Şaiq Mirzəyevi məsləhət görürəm.

Bir daha məhkəmə prosesləri boyunca göstərdiyi səbir, diqqət və peşəkarlığa, eləcə də oğlum Emil Abbasovun hüquqlarını səriştəli şəkildə müdafiə etdiyi üçün vəkil Şaiq Mirzəyevə ən səmimi təşəkkürlərimi bildirirəm.

Hörmətlə,
Abbasova Afət Nurəddin qızı ____________

23 dekabr 2025

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4977
«25» 12 2025